# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ
# BƏBİR XAN (KÜÇÜK HEKAYƏ)



Reji (Tənbəki)1 üsyanı hələ vaqe olmamış idi. Tehran sarayı (Dərbarı) ən köhnə adətləri və ənənələrilə yaşayırdı. Nəsrəddin şahın müqərribləri, yaxınları dərbara intisab (əlaqə) edən əyan və əşraf, xanədan səltənətindən olan Qacar şahzadələr, təntənə və dəbdəbələrilə hərəsi bir hökmdarı andırıyor və keyfləri nəyi istərsə, onu dərhal icra ediyorlardı.

Şahzadələr, xanlar və ya dərbarilərdən birisi kövkəbə və dəbdəbəsilə bir küçədən keçəcək olursa, bu tərəflərin idrak edə bilməyəcəkləri və cavan iranilərin belə inanamıyacaqları bir növ şeylər oluyordu. Ağanın arabası görünmədən gümüş çomaqlı və zərrin sürməli paltar geyinmiş fərraşlar qaça-qaça gəliyor və küçə arasında, divar diblərində, dükan qabağında duran əhaliyə hücum edərək "qalxınız, yan durunuz!" demək olan - "pa şəvid, dur şəvid!" sözlərini bağıraraq təkrar ediyorlar idi.

Bu, müdhiş bir əmr idi ki, ehmal ilə o Təprəşubda onu ciddi tələqqi etməyənlər (başa düşməyənlər) həman gümüş çomaqlarla tədib (tənbeh) olunurdu. Bəzən gözləri bərəlmiş və qorxunc hal və tövrlər ilə hər kəs bu dəfə amadə (hazır) görünən bu qırmızı geyimli və qara ürəkli nökərlərin dilində "pa şəvid, dur şəvid"-dən başqa bir də (kor olunuz) mənasına gələn "kur şəvid!" əmrinin təkrar olunduğunu görərsiniz. Xeyr, müsaidənizlə təshih eliyim ki, bunu görəməz də ancaq eşidərsiniz; zira bu nidanı eşidincə, həman doğrudan da kor olmalısınız, yəni gözlərinizi örtməli və yüzünüzü divara çevirməlisiniz; çünki "Kur şəvid!" nidası kübar bir xanımın, yaxud dərbar hərəmlərindən birinin keçdiyini bildirər.

Tehran xəlqini qovduraraq yoran bu kibi gərdunələr (arabalar) arasında əmsal və əqranına (müasirlərinə) nisbətlə daha motəntən və daha kovkəbəli (cah-cəlallı) mümtaz bir gərdunə arabir Tehran küçələrini dolanırdı. Bir müddət bu ehtişamlı gərdunənin möhtəşəm sahibinin kim olduğunu təyin etmək Tehranlılarca çox müşkül olmuş idi. Məzkur araba küçələrdən keçərkən "Kur şəvid!" denilsəydi, sadiq və müti tehranlılar "Kor olur" və ismətməab (ismətli) bir xanımın keçdigini bilərək heç də maraq etməzlər idi. Halbuki bu əsrarəngiz gərdunə adətən Sədrəzəmlər kibi ötüşüyor və hər kəs onu xaifanə (qorxaq) bir islam, ehtiramkaranə bir təzim və görünüşlə, gözlərdən itincəyə qədər, təşyi (yolasalma) ediyorlardı. Tehranın tanıdığı kövkəblər arasında Nəsrəddin şahdan sonra şan və şövkətdə birinciliyi ehraz (nail olma) edən və Sədrəzəm də gərdunəsinə mütəvəffeq olan (dayanan) bu araba sahibi kim idi, əcəba?..

Uzun bir müddət tehranlılar bu sirri kəşf edə bilməmişlər idi. Zira gərdunəyə süvar olan Ağa heç bir növ ilə ərzi-vücud etməyir və gərdunə bomboş görünüyordu. Əhalidə öylə bir zənn hasil olmuş idi ki, bu möhtəşəm gərdunənin əsrarlı sahibi, nədənsə, küçələrdən keçərkən özünü əhaliyə göstərməmək üçün, gərdunənin bir bucağına sığışıyor.

Əvət, bu əsrarəngiz gərdunə süvarın yüzünü kimsə görməmiş. Fəqət ismini eşitmişlərdi. Məzkur gərdunəyə məxsus olan fərraşlar küçələrdə görülüncə hər kəs:

- Bəbir xan gəliyor! - deyə, yoldaşına xəbər veriyordu. Fəqət Bəbir xanın yüzünü görən yox idi. Bu, bir sirr idi. Bu sirri kəşf etmək üçün Gərdunəyə yaxınlaşmaq, içəri baxmaq lazım gəliyordu. Fəqət böylə bir cəsarəti kim eylər? Gərdunəyə yaxınlaşmaq qalsın, onun keçdiyi vəqt küçədəkilərdən biri hərəkət edərsə, təpəsinə vurulur və həman saət həbsə alınıyor idi.

Yalnız bir gərdunə ilə qırmızı geyimli fərraşlar deyil, Bəbir xan hər şeyə malik idi. Bəbir xanın məxsusi qəsri, məxsusi dəftərxanası, məxsusi idarəsi var idi. O, Zati Əlahəzrət Hümayunun ən sevdiyi müqərrəblərdən (yaxın) və sözü ötgün müşavirlərindən və xass hərimindən (qadağan edilmiş yer) idi. Şah, Bəbir xan təvəsöt (vasitə) edərsə, edəm cəzalarını əfv edər; Sədr-əzəmə acığı tutduqda belə, Bəbir xanın şəfaəti üzərinə günahlarına göz örtərdi.

Şah yanında böylə bir qürb (yaxınlıq) və etibar sahibi olduğunu bilən əhali Bəbir xanın daməni-təvəssülündən əl götürməz, ona min dürlü hədiyyələr təqdim edərdilər. Onun qapısı daima millətçilər və ərizəçilər ilə dolu olurdu. Həyatına qaçıb girə bilən günahkarlar belə "bəst"də ədd olunub, hər bir təcavüzdən məsun (toxunulmaz) idilər.

Bəbir xan ricali-dövlətdən ən nafezül kəlam (sözü keçən) olanı idi. Şahca qəbulə keçməmiş bir ricası vaqe olmamış idi. Şah ona fövqəladə bir məhəbbət bəslərdi. Qəlbi mətin bir surətdə Bəbir xana mərbut idi. Bu mərbutiyyətin nə qədər səmimi olduğunu da Bəbir xanın xəstə olduğu zamanlarda Şahın göstərmiş olduğu tə-laş və həyəcanlardan anlaşılmış idi. Hətta son dəfə Bəbir xanın ölümünü mucəb xəstəliyi mozmenləşincə (xroniki) Nəsrəddin şah bütün Tehran təbiblərini bir yerə yığmış və bir konsultasiyon icra etdirmiş idi. Bəbir xanın təhlükəli həmalər (titrəmə) keçirdiyini bilincə şahənşah şiddətli bir əsəbiyyət göstərmiş və az qala xəstələnmişdi.

Artıq Bəbir xanın kim olduğunu bilənlər məhdud şəxslər deyildi; bir çoxları onun kim olduğunu öyrənmişdilər. Tehranlıların əksəri bu əcib rabiteyi-qəlbiyyəyi heyrətlərlə tələqqi (başa düşmək) etmişlər idi. Bittəb bu heyrətlərin bədayəti sizin bu hekayəciyin nəhayətində hiss edəcəginiz heyrətdən bəlkə də əksik olmamış. Fəqət sonraları buna hər kəs öyrənmiş və şahlardan bu kibi təzahüratı çox da əcib və uzaq görməmişlərdir.

Bu gün tehranlılar erkən yuxudan qalxarkən əcaib səslər eşitdilər. Bu, şəhərin küçələrini dolanıb da olanca gur bir səslə bağıran və Bəbir xanın vəfat elədiyini ittila verən naiblərin sədası idi. Minacatçılar bu ziya əl-imək zat şahanələrini ziyadəsilə mütəəssir qıldığını və bu təsiri-mülukanələrinə əhalinin də çarsuları, bazarları bağlayıb da təşyi (yolasalma) cənazəyə hazır olmaq surətilə məmlükanə iştirak etmələri lüzumunu əlavə ediyorlardı.

Bu gün, Tehran tarixi bir gün keçirdi. Əmsali-naməsbuq həzin bir ixtilal edildi. Binlərlə əhali Bəbir xanın cənazəsini duşi-ehtiramlarına aldılar. Küçələri dolanaraq şəhərdən dişarı çıxardılar və torpağa basdırdılar. Şəhərin kübar qismi tamamilə bu ehtifalda (yığıncaqda) hazır olub, tabutu danışmaqda, adətən biri-birinə səbqət (ötürmək) edircəsinə rəqabət göstəriyordular.

Yalnız bu mərasimi-tədfiniyədə bir şey var idi ki, nəzər-diqqəti cəlb ediyordu. Bu da ayini-diniyyənin olmaması idi. Fəqət cənazəyi təşyi (yola salanlar) edənlər buna heç də heyrət etməyir və bunu təbii buluyordular.

- Neyçün? deyə soruyorsunuz.
- Zira Bəbir xan bir heyvan idi.
- Necə heyvan? deyə bəyani-heyrət ediyorsunuz.
- Əvət, Bəbir xan bir heyvan, bir kudu (pişik) idi.
- Necə pişik? Deyə daha fəzlə tozihat (şərh) istərsiniz, degilmi?
- Əvət, pişik deyə sizi təmin edərəm.

Bəbir xan Nəsrəddin şahın sevgili bir pişiyinin adı idi. Və əsrarəngiz gərdunəsi ilə qəlblərə dəhşət ilqa (inanmaq) edən, böyük bir dəbdəbə ilə küçələri dolanan, əmr, nəhy (qadağan) və təvəssötlər (vasitələr) icra edən Bəbir xan, bir məstan, əvət bir "qorbeye hümayun" idi.

- Əcaibmi?! ... Fəqət Nəsrəddin şahın bu kibi əcaiblikləri çoxdur, o, bununla öz iqtidarını isbat etmək istəmiş:

İstə qəvi əhali görsün ki, Şah istərsə, bir pişiyi də onlara məsəllət (ağalıq edən) edə bilər!

1. 1892-ci ildə Nəsrəddin şah tərəfindən İran tənbəkisi bir ingilis kompaniyasının (Talbot) təhti nəzarətinə verilmişdi. Sonra İran müctəhidləri imtiyazın əleyhinə qiyam ilə əhalini üsyana təşviq etdilər, şahı onu ləğv etməyə məcbur etdilər.

***"Şəlalə" məcmuə, H.q. 13311913, №26, s. 11-12.***



**Ərəb əlifbasından transliterasiya edən:**

***Tahirə HƏSƏNZADƏ,***
***tarix elmləri doktoru***